

*Gün gələcək*
*Azərbaycan dünyaya günəş kimi doğacaq.*

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

11 SENTYABR 2019-cu il | ÇƏRŞƏNBƏ | № 198 (6525) | GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET | WWW.RESPUBLICA-NEWS.AZ


# Multikultural dəyərlər qorunub saxlanılır

**“Multikulturalizm Azərbaycanın dövlət siyasəti və həyat tərzidir... Bu gün Azərbaycan artıq dünyada tanınmış multikulturalizm mərkəzlərindən biridir”.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bu gün qloballaşan dünyamızda bir-birindən əhəmiyyətli və maraqlı beynəlxalq konfrans və simpoziumlara ev sahibliyi edən Azərbaycanın dəfələrlə yüksək etimada layiq görülməsi onu təsdiqləyir ki, geosiyasi cəhətdən əlverişli məkanda yerləşən, tarixi, iqtisadi tərəqqisi ilə diqqəti cəlb edən ölkəmiz regionda aparıcı mövqeyə malikdir.**

Multikulturalizmin əsasını tolerantlıq, milli birliklərin adət-ənənələrinə və bir-birinin azadlığına hörmət hissi təşkil edir. Multikulturalizm dəyərlərinə malik olan ölkə və xalq ayrı-seçkiliyə yol vermir və öz ölkəsində mədəni siyasət aparmaqla, mədəni plüralizmi qəbul edir və onun inkişafına şərait yaradır. Öz ölkəsində etnik, irqi və dini müxtəlifliyindən asılı olmayaraq, onların hamısının hüquq və azadlıqlarına hörmətlə yanaşır. Ancaq çox təəssüf hissi ilə qeyd etmək olar ki, bu gün dünyada cərəyan edən proseslər bunun əksini göstərir. Özünü multikultural dövlət kimi göstərən ölkələrdə multikultural dəyərlər dağılır, problemlər yaranır, ayrı-seçkiliyə yol verilir, o ölkələrdə yaşayan qeyri-etnik qruplara malik insanların hüquq və azadlığı kölgə altına salınır. İnsanların yaşadığı ölkəyə inam və etibarı azalır.

Tarixi keçmişdən multikultural dəyərləri özündə formalaşdırmış olan Azərbaycan dünyada bu prosesə qarşı olan təhlükəni hiss edir və onun xilası naminə əlindən gələn imkan və mübarizənin həlli yollarını təklif edir.

Azərbaycan tarixi keçmişindən bu günə qədər, həmişə bütün xalqların və dinlərin nümayəndələrinin sülh və dostluq şəraitində yaşadığı məkan olub. Multikulturalizm, hazırda ölkəmizdə alternativi olmayan həyat tərzidir. Azərbaycan tarixən qonaqpərvər bir millət olmuş, burada yaşayan xalqlar həmişə özlərini azad hiss etmiş, firavan yaşamış, çünki həmişə onlara tolerant münasibət göstərilmişdir. Azərbaycan multikultural dəyərləri özündə cəmləşdirən tarixi bir məkandır. Multikultural dəyərlər tarix boyu Azərbaycanda mövcud olmuş və bu gün də bu sahədə dünyaya nümunə göstərilən bir ölkəyə çevrilmişdir.

Azərbaycanda multikulturalizmin möhkəmləndirilməsi və inkişafında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xüsusi rolu olmuşdur. Müasir Azərbaycanın memarı olan ulu öndər respublikamızda multikulturalizmin həm hüquqi, həm də siyasi banisidir. Ümummilli lider Heydər Əliyev multikulturalizm siyasətini ölkənin demokratik inkişafının ayrılmaz tərkib hissəsi hesab edirdi. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının multikultural ənənələrinin qorunması sahəsində həyata keçirilən siyasi istiqamət hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir.

Azərbaycanda müxtəlif millətlərin, dinlərin və mədəniyyətlərin nümayəndələrinin sərbəst yaşamaları üçün bütün zəruri şərait yaradılmışdır. Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra ölkəmizdə multikulturalizm ənənələrinin güclənməsinə dövlət dəstəyi formalaşıb və bu siyasət ildən-ilə daha da güclənir. Azərbaycan multikulturalizm cəhətdən dünyaya nümunə olan bir ölkəyə çevrilmişdir.

Ölkəmizdə mədəni, etnik müxtəlifliyin qorunmasına yönələn və uğurla həyata keçirilən dövlət siyasəti multikulturalizm sahəsində əsrlərdən bəri toplanmış böyük tarixi ənənələri qoruyub saxlamağa və daha da inkişaf etdirməyə yönəlmişdir. Multikulturalizm və tolerantlıq ənənələrinin qorunub saxlanılması Azərbaycanda dövlət siyasətinin prioritetlərindən biridir. Elə bu səbəbdən də son illər multikulturalizm, sivilizasiyalararası və mədəniyyətlərarası dialoq mövzularına həsr olunmuş bir çox beynəlxalq tədbirlər məhz Bakıda keçirilir.

**Məhəmməd VƏLİYEV,**
**“Respublika”.**

# Milli Məclisin Sədri Almaniyaya səfər edib



**Azərbaycan Respublikası Milli Məclisinin Sədri Oqtay Əsədov Almaniyanın paytaxtı Berlinə səfər edib.**

Oqtay Əsədov sentyabrın 9-da Almaniya Bundesratının birinci vitse-prezidenti, Berlin şəhərinin meri Mixael Müller, Almaniya Bundestaqının prezidenti Volfqanq Şoyble, Bundestaqın Almaniya-Cənubi Qafqaz parlament qrupunun rəhbəri Yohannes Kars və qrupun digər üzvləri ilə görüşlər keçirib.

Görüşlərdə Azərbaycanın xarici siyasəti, Almaniya və Avropa İttifaqı ilə münasibətləri, regional məsələlər, o cümlədən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, eləcə də parlamentlərarası əməkdaşlığa dair geniş fikir mübadiləsi aparılıb. İki ölkə arasında siyasi, iqtisadi, elmi, mədəni və digər sahələrdə münasibətlərin dinamik inkişaf etməsi, Azərbaycan və Almaniya arasında baş tutan yüksək səviyyəli səfərlər, hər iki ölkənin parlamentində fəaliyyət göstərən aidiyyəti dostluq qruplarının ikitərəfli münasibətlərə verdiyi töhfələr, Milli Məclis və Bundestaq deputatları arasında beynəlxalq təşkilatlar səviyyəsində mövcud olan konstruktiv əməkdaşlıq xüsusilə vurğulanıb.

Milli Məclisin Sədri Azərbaycanın Avropa, o cümlədən Almaniyanın enerji təhlükəsizliyinə töhfələri, regionda həyata keçirdiyi nəhəng enerji və nəqliyyat layihələri, Cənub Qaz Dəhlizinin icrası, Şimal-Cənub və Qərb-Şərq nəqliyyat dəhlizlərinin inkişafına xidmət edən layihələr, ölkəmizin çətin geosiyasi regionda yerləşməsinə baxmayaraq, müstəqil və milli maraqlara söykənən siyasət yürütməsi, eləcə də Ermənistanın hərbi təcavüzünün nəticələri və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli yolları barədə məlumat verib. Oqtay Əsədov Almaniya Bundestaqının Azərbaycanın ərazi bütövlüyünə dəstək verən qətnamə qəbul etməsini məmnunluqla xatırlayaraq, Almaniyanı Minsk qrupunun üzvü kimi münaqişənin həllinə fəal töhfə verməyə çağırıb. O, Bundestaqın prezidenti Volfqanq Şoyble və Bundesratın birinci vitse-prezidenti Mixael Mülleri Azərbaycana səfərə dəvət edib.

Almaniya rəsmiləri Azərbaycanı Almaniyanın mühüm iqtisadi tərəfdaşı adlandırıblar və ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlığın dərinləşməsindən məmnunluq ifadə ediblər. Azərbaycanın regionda sabitləşdirici faktor olması, Avropa ölkələri ilə sıx əməkdaşlıq münasibətlərinin qurulmasına yönələn xarici siyasət yürütməsi, xüsusilə Almaniya ilə münasibətlərin dərinləşməsinə mühüm önəm verməsi, Almaniyanın müxtəlif bölgələri ilə əlaqələrin qurulmasına və cəmiyyətin müxtəlif sahələrində birbaşa təmasların və tərəfdaşlıqların meydana gəlməsinə maraq göstərməsi, ölkəmizdə alman irsinin dövlət səviyyəsində qorunması və alman dilinin tədrisinin geniş vüsət alması Almaniya tərəfdən məmnunluqla qarşılanıb. Alman parlamentariləri eləcə də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli prosesinə dəstək verməyə hazır olduqlarını qeyd ediblər.

Bundesratda keçirilmiş görüşdə, həmçinin Bakı və Berlin şəhərləri arasında əməkdaşlıq imkanları müzakirə edilib, paytaxt şəhərləri arasında turizm, təhsil, vətəndaş cəmiyyəti əlaqələrinin möhkəmləndirilməsinə hər iki tərəfin marağı ifadə olunub. Mixael Müller Berlin şəhərinin meri kimi bu istiqamətdə təşəbbüslərə dəstək verməyə hazır olduğunu bildirib.

Milli Məclisin Sədri səfər çərçivəsində Bundestaqın plenar iclaslarının keçirildiyi tarixi Reyxstaq binası ilə də tanış olub. O, eləcə də Almaniya Azərbaycanlılarının Koordinasiya Şurasının əlaqələndiricisi Yaşar Musayevi qəbul edib.

Oqtay Əsədovu Milli Məclisin deputatları - Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı, Azərbaycan-Almaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Xanlar Fətiyev, Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının sədri Azay Quliyev, eləcə də Milli Məclis Aparatının vəzifəli şəxslərindən ibarət böyük nümayəndə heyəti müşayiət edib. Görüşlərdə, həmçinin Azərbaycanın Almaniyada fövqəladə və səlahiyyətli səfiri Ramin Həsənov iştirak edib.

**AZƏRTAC**

*ATƏT PA-nın sədri:*

# Ermənistanın baş nazirinin Dağlıq Qarabağla bağlı səsləndirdiyi bəyanat danışıqlar prosesinin gedişinə zərbə vurur

**Ermənistanın baş naziri Nikol Paşinyanın Dağlıq Qarabağ ilə bağlı səsləndirdiyi bəyanat münaqişənin nizamlanmasına və danışıqlar prosesinin gedişinə zərbə vurur.**



AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında ATƏT PA-nın sədri Giorgi Tsereteli söyləyib.

ATƏT PA-nın sədri deyib: “Düşünürəm ki, münaqişənin həllinə nail olmaq məqsədi daşımayan və ölkələr arasındakı müzakirələrə töhfə verməkdən uzaq olan bu cür bəyanatların səsləndirilməsi hər zaman sülh prosesinə zərbə vurur. ATƏT məkanında, Cənubi Qafqazda mövcud olan Dağlıq Qarabağ münaqişəsi bütün dünyanın, eləcə də bizim təşkilatımızın diqqət mərkəzindədir. Biz daha çox konstruktiv bəyanatlar eşitmək istəyirik və konkret addımlar gözləyirik”.

Onun sözlərinə görə, münaqişənin ədalətli həllinə nail olmaq üçün fikir ayrılıqlarını və fərqli düşüncələri bir araya gətirib ortaq dil tapmaq lazımdır. Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə yalnız beynəlxalq hüquq çərçivəsində nail olmaq mümkündür.

**AZƏRTAC**

*Gürcüstan parlamentinin sədri:*

# Azərbaycan ilə strateji əməkdaşlıq bizim üçün çox vacibdir




**Azərbaycan bizə dost və qonşu ölkədir. Eyni zamanda, bizim üçün vacib tərəfdaşdır. Azərbaycan ilə strateji əməkdaşlıq bizim üçün çox vacibdir. Mən bu əməkdaşlığın yüksək səviyyədə qorunub saxlanılması üçün əlimdən gələni edəcəyəm.**

AZƏRTAC xəbər verir ki, bu fikri jurnalistlərə müsahibəsində Gürcüstan parlamentinin sədri Arçil Talakvadze söyləyib.

Parlament sədri Azərbaycana rəsmi səfərinin planlaşdırıldığını bildirərək deyib: “Hazırda Gürcüstan parlamenti bir sıra vacib qanunlar üzərində işləyir. Gərgin iş qrafikimiz var. Biz seçki qanunvericiliyi sahəsində islahatlar həyata keçiririk və konstitusiyaya düzəliş edirik. Bu, bütün ölkə ərazisində ictimai müzakirələrin keçirilməsini tələb edir. Amma mən qonşu ölkələrə, o cümlədən Azərbaycana səfər planlaşdırıram. Regional əməkdaşlıq Gürcüstan üçün çox vacibdir və biz bu regionun bir hissəsiyik. Qonşu ölkələrlə strateji əməkdaşlığın yüksək səviyyədə qorunub saxlanılması üçün əlimdən gələni edəcəyəm”.

**AZƏRTAC**

# Gündəlik neft hasilatı 749 min barel olub

**Respublikada avqust ayı üzrə gündəlik neft hasilatı 749 min barel olub. Bunun 686 min barelini xam neft, 63 min barelini kondensat təşkil edib. Gündəlik 501 min barel xam neft, 59 min barel kondensat, 4,5 min barel isə neft məhsulları ixrac edilib.**

Energetika Nazirliyindən verilən məlumatda bildirilir ki, gündəlik neft hasilatının 776 min barel həcmində saxlanılmasına dair razılaşma çərçivəsində Azərbaycan hasilatı sutkada 20 min barel azaltmaqla bağlı götürdüyü öhdəliyi tam yerinə yetirib. Qeyd edək ki, cari ilin yanvar-avqust aylarında orta gündəlik neft hasilatı 769 min barel təşkil edib.

Energetika Nazirliyi avqust ayında gündəlik neft hasilatı ilə bağlı məlumatları OPEC-in Birgə Monitorinq Komitəsinin Müştərək Texniki Komissiyasına təqdim edib.

Xatırladaq ki, 2018-ci il dekabrın 7-də “OPEC plus” üzrə neft hasilatının gündəlik 1.2 milyon barel azaldılması ilə bağlı imzalanmış “Əməkdaşlıq Bəyannaməsi”nin müddəti 2019-cu ilin iyul ayından 2020-ci ilin I rübünün sonunadək uzadılıb.

**Səfər MAHMUDZADƏ,**
**“Respublika”.**

# Baş prokuror Qəbələ və Oğuz rayonlarının sakinlərini qəbul edəcək

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Baş prokuror Zakir Qaralov sentyabrın 13-də saat 10:00-da Qəbələ Rayon Prokurorluğunun inzibati binasında Qəbələ və Oğuz rayonları sakinlərinin qəbulunu keçirəcək.**

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qəbulda vətəndaşların prokurorluq orqanlarının səlahiyyətlərinə aid müraciətlərinə baxılacaq.

Vətəndaşların qəbulla bağlı qeydiyyatı və Qəbələ rayonuna gəlmələri müvafiq rayon prokurorları tərəfindən təşkil ediləcək.

Vətəndaşlar yaşadıqları ərazi üzrə rayon prokurorluqlarına yazılı və ya şifahi müraciət etməklə yanaşı, Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsinin 437-28-79 nömrəli telefonu və contact@prosecutor.gov.az elektron poçt ünvanı vasitəsilə də qəbula yazıla bilərlər.

**AZƏRTAC**

*Dmitri Savelyev:*

# Təhlükəsizlik sahəsində təcrübə mübadiləsi Rusiya ilə Azərbaycanın qarşılıqlı münasibətlərinin mühüm tərkib hissəsidir

*Rusiya ilə Azərbaycan arasında qarşılıqlı fəaliyyət prosesləri xeyli sürətlənməkdədir: cəmi bir həftə ərzində Azərbaycan nümayəndə heyəti Şərq İqtisadi Forumunun işində iştirak edib, Rusiya Təhlükəsizlik Şurasının katibi isə Bakıda öz həmkarı ilə görüşüb. Rusiya Federasiyası Dövlət Dumasının deputatı, Rusiya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri Dmitri Savelyev bu və digər proseslərin perspektivlərini şərh edir.*

**-Dmitri İvanoviç, iqtisadiyyat sahəsində Rusiya-Azərbaycan tərəfdaşlığının dinamikası bizim söhbətlərimizin daimi mövzusudur. Qarşılıqlı əmtəə dövriyyəsində vəziyyət necədir?**

-Bəri başdan qeyd etməliyəm ki, son illərdə Rusiya Azərbaycanın ticarət tərəfdaşlarının siyahısında davamlı olaraq aparıcı yerlərdən birini tutur, ölkələrimiz arasında ticarətin həcmi isə durmadan artır: cari ilin 7 ayı ərzində əmtəə dövriyyəsinin həcmi 1,6 milyard dollar olub. Bu, 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 23 faiz çoxdur. Bu il yayda Azərbaycan Rusiyadan taxıl alınması üzrə rekord göstərib: Ulyanovsk vilayətindən ixrac edilən taxılın 70 faizi azərbaycanlı istehlakçılara göndərilib, Azərbaycana taxıl satan ənənəvi tərəfdaş olan Stavropol diyarı isə bu respublikaya 146 min ton taxıl yola salıb. Bu, bir il əvvəlki ilə müqayisədə üç dəfə çoxdur.

**-Bu yaxınlarda Bakıda başa çatmış biznes-missiya hər hansı yeni meyilləri aşkar edibmi?**

-Azərbaycanın təşəbbüsü ilə başlanmış bu pilot təcrübəsi uğurlu olub: Rusiyanın yeddi regionundan 30-dan çox şirkət öz potensialını Azərbaycan biznes birliyinə təqdim etməyə gəlmişdi. Qarşı tərəfin bu tədbirə marağı çox böyük idi: Azərbaycan tərəfindən 16 sahəni təmsil edən 150 müəssisə bu görüşə qoşulmuşdu. Biznes-missiya dövründə üç kontrakt imzalandı, daha bir neçə saziş isə ilkin razılaşma mərhələsindədir. Rusiyadan ixracın yeni perspektivli istiqamətləri arasında süd məhsulları, taxta-şalban, faner və tikinti armaturunun adlarını çəkmək olar. Azərbaycanlı tərəfdaşlar bu mallar üçün sifarişlərini bizə təqdim etməyə hazırdırlar.

**-Şərq İqtisadi Forumu azərbaycanlı sahibkarlarda maraq doğura bildimi?**

-Bu maraq qarşılıqlıdır. Üstəlik, dünyada iqtisadi inkişaf sürətinin azalması şəraitində Azərbaycan iqtisadiyyatı kimi inkişaf etməkdə olan iqtisadiyyat iri investorlarda güclü maraq oyadır. Fikrimcə, Odlar Diyarını çoxlu ciddi biznes təklifləri gözləyir. Forum özü isə Azərbaycan üçün ona görə maraqlıdır ki, o, qeyri-iqtisadi səbəblərə görə biznes əlaqələrini məhdudlaşdıran Avropa bazarları ilə müqayisədə siyasi şəraitin qat-qat sərfəli olduğu Asiya bazarlarına yol açır. Azərbaycan Avrasiya məkanında həyata keçirilən bir sıra layihələrdə fəal iştirak edir və bu meyil güclənməkdədir, çünki Azərbaycanın nəqliyyat-logistika potensialı qitə miqyasında inteqrasiyanı gücləndirir. Yeri gəlmişkən, forum müddətində Rusiya ilə Hindistan arasında imzalanmış sənədlər paketi gömrüklə bağlı və digər maneələrin çoxunu aradan qaldırır. Bu o deməkdir ki, Azərbaycanın dəmir yol və dəniz nəqliyyat imkanlarının cəlb edildiyi “Şimal-Cənub” nəqliyyat dəhlizi daha dinamik fəaliyyət göstərəcək. Bu da öz növbəsində, respublikanın regionda iqtisadi və siyasi mövqelərini xeyli gücləndirəcək.

**-Son vaxtlar Azərbaycan kibertəhlükəsizlik strategiyasının işlənib hazırlanması ilə məşğuldur. Bu strategiyanın zəruriliyi nə ilə bağlıdır?**

-Ölkələrimiz beynəlxalq terrorizm və transmilli cinayətkarlıqla bağlı, əvvəllər misli görünməmiş çağırışlarla üzləşir. Belə çağırışlardan biri texnoloji xarakter daşıyır. Dünya yeni dövrə - məlumat axınına nəzarət sistemlərinin rəqabəti dövrünə qədəm qoyub. Bu halda informasiya mühiti müxtəlif kibernetik hücumlar nəticəsində deformasiyaya məruz qalır. Buna görə də biz xarici informasiya təhlükəsizliyi sistemlərini birlikdə yaratmalıyıq və burada Rusiya Azərbaycana çox kömək edə bilər. Məsələn, bizim xüsusi xidmətlərin nümayəndələri azərbaycanlı həmkarlarına xəbərdarlıq ediblər ki, ilk baxışda heç bir şübhə doğurmayan kompüter oyunlarının və kvestlərin köməyi ilə gəncləri terror qruplarına cəlb etməyin yeni formaları yaranıb. Düşünürəm ki, bu xəbərdarlıq Azərbaycanın hüquq-mühafizə orqanları tərəfindən ekstremistlərin vaxtında aşkar olunmasına kömək edəcək. Beləliklə, təhlükəsizlik sahəsində təcrübə mübadiləsi Rusiya ilə Azərbaycanın qarşılıqlı münasibətlərinin mühüm tərkib hissəsinə çevrilir.

**AZƏRTAC**

# Nəsimi - 7 böyük ozandan biri

Əlli il öncə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə böyük Azərbaycan şairi İmadəddin Nəsiminin (1369-1417) 600 illik yubileyi keçirilmiş, bununla həm ölkəmizdə, həm də xaricdə onun həyat və yaradıcılığına maraq artmışdı. Ana dilimizdə yaratmış olduğu mükəmməl poeziya nümunələri yüz illər boyunca ozanların, muğam ustalarının dilindən düşməyərək milli mədəniyyətimizin inkişafına misilsiz töhfələr verən qüdrətli sufi şairin əlyazmalarının tədqiqi həmin vaxtdan etibarən genişlənmiş, əsərləri kütləvi tirajla çap edilmişdi. Təsadüfi deyil ki, İmadəddin Nəsiminin təbliğində xüsusi yeri olan film də məhz ulu öndər Heydər Əliyevin sovet Azərbaycanında hakimiyyətdə olduğu zamanda - İsa Hüseynovun (Muğanna) ssenarisi əsasında rejissor Həsən Seyidbəyli tərəfindən 1973-cü ildə çəkilmiş, baş rolun ifaçısı, o dövrdə gənc olan istedadlı aktyorumuz Rasim Balayevin yaratdığı obraz xalqımız tərəfindən böyük sevgi ilə qarşılanmışdı.




AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun "Facebook" sosial şəbəkəsində paylaşdığı statusda yer alıb.

Əli Həsənov bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin 2004-cü il yanvarın 12-də imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Sərəncama əsasən işıq üzü görən, oxuculara təqdim və ölkə kitabxanalarına hədiyyə edilən nəşrlər arasında, heç şübhəsiz, Nəsiminin əsərləri də yer almışdı. Hər kəsə o da yaxşı məlumdur ki, dövlətimizin başçısı Nəsimi irsinin müasir humanitar düşüncənin tələbləri kontekstində aktuallığını, milli mədəni-mənəvi dəyərlərin təbliği baxımından xüsusi əhəmiyyətini nəzərə alaraq içərisində olduğumuz 2019-cu ili "Nəsimi ili" elan edib. Prezidentin bu Sərəncamından irəli gələrək il ərzində xalqımızın ədəbi və fəlsəfi fikir tarixində dərin iz qoymuş şair haqqında çox sayda elmi və mədəni tədbir keçirilib, araşdırmalar aparılıb, o cümlədən kütləvi informasiya vasitələrində sanballı məqalələr dərc olunub. Tədbirlər davam edir.

Prezidentin köməkçisi qeyd edib ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə mütəfəkkir şair İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə bir gündə respublikamızda 650 min ağac əkiləcək. Bu barədə yayılan açıqlamadan xəbərdarsınız ki, böyük şairin dünya əhəmiyyətli poeziyasının beynəlxalq aləmdə təbliği, xatirəsinin əbədiləşdirilməsi, Azərbaycanın ədəbi və mədəni irsinin tanıdılması məqsədi daşıyan bu nəcib təşəbbüsə respublikamızın bütün bölgələrində ictimaiyyət nümayəndələri, həmçinin dövlət və hökumət qurumlarının, diplomatik korpusun, icra hakimiyyətləri orqanlarının, qeyri-hökumət təşkilatlarının təmsilçiləri və könüllü gənclər qoşulacaqlar.

"Zənnimcə, "Nəsimi ili"nə gözəl töhfələrdən birini də "Youtube" kanalındakı hesabına yerləşdirdiyi son bəstəsi ilə soydaşımız, Azərbaycan əsilli Britaniya sənətçisi Sami Yusif verdi. Onun "Şur" muğamının ladları üzərində gəzişərək ərsəyə gətirdiyi "Nəsimi" kompozisiyası sosial şəbəkələrdə qısa zamanda populyarlaşdı və böyük rəğbətlə qarşılandı. Müntəzəm olaraq Azərbaycana gələn, ötən ilin sentyabrında Heydər Əliyev Fondunun təşkilatçılığı və Mədəniyyət Nazirliyinin dəstəyi ilə gerçəkləşən Nəsimi - şeir, incəsənət və mənəviyyat festivalında iştirak etmiş Sami kimi məşhur, açıq konsertlərinə yüz minlərlə tamaşaçı toplanan bir sənətçinin klassik poeziyamızın pərəstişkarı olması, mənəvi dünyamızın incilərini yeni və peşəkar formada bütün dünyaya yayması, əlbəttə, təqdirəlayiqdir. Onun xalq çalğı alətlərimizin müşayiəti ilə, milli, klassik və müasir musiqi elementlərini sintez edərək, xanəndə Təyyar Bayramovun, digər sənət adamlarımızın ifasından, bacarığından uğurla yararlanaraq hazırladığı parçanı internetin verdiyi imkanlar sayəsində işə gələrkən yolda dinlədim. Bir dinləyici kimi zövqümü oxşadı. Odur ki, türk dünyasının 7 böyük ozanından biri sayılan Nəsiminin "Sığmazam" rədifli qəzəlinin bu cür ecazkar, ovsunlayıcı musiqiyə çevrilməsinə əmək sərf etmiş hər kəsə təşəkkür edir, böyük məmnuniyyətlə videosunu sizlərlə - öz "Facebook" dostlarımla paylaşıram. Paylaşıram həm də ona görə ki, Heydər Əliyevin və İlham Əliyevin Nəsimi kimi tarixi şəxsiyyətlərimizi, mütəfəkkirlərimizi cəmiyyətimizin və bütün dünyanın nəzərində ucaltmaqla standart məkan qəliblərinə sığmadıqları barədə qənaətimi bir daha sizlərlə bölüşüm".

**AZƏRTAC**

# Azərbaycanın Energetika naziri Əbu-Dabidə bir sıra görüşlər keçirib

*Beynəlxalq Enerji Agentliyi Azərbaycanın energetika sektorunun uzunmüddətli inkişaf Strategiyasının layihəsinin hazırlanmasına dəstək verəcək*

**Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə səfərdə olan Energetika naziri Pərviz Şahbazov bir sıra görüşlər keçirib.**



Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, nazirin Beynəlxalq Enerji Agentliyinin (İEA) icraçı direktoru Fatih Birol ilə görüşündə qlobal neft bazarında hazırkı vəziyyət, neftin qiymətinə, eləcə də tələb və təklifə təsir edən amillər, neft ölkələrində iqtisadiyyatın şaxələndirilməsi və bərpaolunan enerji mənbələrinin inkişaf etdirilməsi kimi məsələlər ətrafında fikir mübadiləsi aparılıb. P.Şahbazov energetika sektorunda islahatlar çərçivəsində görülən tədbirlər barədə ətraflı məlumat verərək "Azərbaycan Respublikasının energetika sektorunun uzunmüddətli inkişaf Strategiyası"nın layihəsinin hazırlanması istiqamətində Beynəlxalq Enerji Agentliyi ilə intensiv əməkdaşlığın vacibliyini qeyd edib. F.Birol Azərbaycanın energetika sektorunda yeni çağırışlara uyğun fəaliyyətini təqdir edərək strategiya layihəsinin hazırlanmasına dəstək verəcəklərini bildirib.

Bərpaolunan enerji sahəsində əməkdaşlığın genişləndirilməsi və bu sahəyə dəstəklə bağlı məsələlər isə Çinin Milli Enerji Administrasiyasının vitse-prezidenti Lin Shanqing ilə görüşdə müzakirə edilib. Nazir bu ilin aprelində "Bir kəmər, bir yol" II Beynəlxalq Əməkdaşlıq Forumu çərçivəsində Azərbaycan Prezidentinin Çinə səfərinin və imzalanan sənədlərin iki ölkə arasında müxtəlif sahələrdə, eləcə də enerji sektorunda əlaqələrin genişlənməsi üçün yaratdığı imkanları xatırladıb. P.Şahbazov Çin şirkətlərini bərpaolunan enerji sahəsində fəal iştiraka dəvət edib.

Nazir Dünya Neft Şurasının prezidenti Tor Fyeranın rəhbərlik etdiyi nümayəndə heyəti ilə də görüşüb. T.Fyeran XXIV Dünya Neft Konqresinə ev sahibliyi etmək üçün keçirilmiş səsvermədə Azərbaycanın yüksək nəticə göstərdiyini vurğulayıb və ölkəmizlə qurum çərçivəsində əlaqələrin dərinləşdirilməsi ilə bağlı təkliflərini diqqətə çatdırıb. Cari və növbəti illərdə Dünya Neft Şurasının müxtəlif tədbirlərində Azərbaycanın təmsil olunması, T.Fyeranın ölkəmizə gözlənilən səfəri, eləcə də neft-kimya və neft emalı sahəsində inkişaf tendensiyaları barədə fikir mübadiləsi aparılıb.

Monqolustanın Energetika naziri Çerenpil Davasurenlə görüşdə isə iki ölkə arasında enerji sahəsində əməkdaşlıq, eləcə də Monqolustan tələbələrinin Azərbaycan Dövlət Neft və Sənaye Universitetində təhsil almaları ilə bağlı məsələlər müzakirə edilib. "Monqolustanın Energetika Nazirliyi ilə Azərbaycan Respublikasının Energetika Nazirliyi arasında energetika sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu"nun imzalanmaya hazır olduğu bildirilib. Həmçinin Monqolustanın neft sektorunun inkişafında Azərbaycanla əməkdaşlığa maraq ifadə edilib.

Səfər çərçivəsində həmçinin Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) energetika naziri Süheyl Məhəmməd əl-Məzrui, Dünya Enerji Şurasının həmsədri Jean Marie Dauger, Hindistanın Neft və Qaz naziri Dharmendra Pradhan ilə də görüşlər keçirilib və ikitərəfli əməkdaşlığa dair fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

# Aşura günü ilə bağlı Təzəpir məscidində qanvermə aksiyası keçirilib

**Aşura günü ilə bağlı Təzəpir məscidində ənənəvi qanvermə aksiyası keçirilib.**



AZƏRTAC xəbər verir ki, Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Milli Məclisin deputatları, ölkəmizdə fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri də aksiyaya qoşulublar.

Könüllü aksiya irsi qan xəstəliklərindən əziyyət çəkənlərə yardım məqsədilə Səhiyyə Nazirliyi və Qafqaz Müsəlmanları İdarəsi tərəfindən keçirilib.

Aksiya çərçivəsində jurnalistlərə açıqlama verən Şeyxülislam Allahşükür Paşazadə deyib ki, ehtiyacı olan insanlara qan vermək şəriətin və dinin istəyidir. Şeyxülislam bildirib ki, Azərbaycanda Aşura günü ənənəsi hələ də yaşadılır. Bu gün zəncirvurma, başyarma, qançıxarma halları bəyənilmir. Buna görə də qərara gəlindi ki, qanvermə aksiyası təşkil olunsun. Öz qanımızı verməklə xəstə insanlara kömək edirik. Bu, şəriətin və dinin istəyidir. QMİ sədri deyib ki, hazırda Azərbaycanın bir çox məscidlərində qanvermə aksiyası davam edir. Sevindirici haldır ki, Azərbaycandan sonra qonşu ölkə olan İran və Türkiyədə də bu ənənə vüsət alıb. "Bu, savab işdir. Vətən uğrunda həlak olan bütün şəhidlərimizə də başsağlığı verirəm", - deyə Allahşükür Paşazadə qeyd edib.

**AZƏRTAC**

*Nazir:*

# Azərbaycan bərpaolunan enerji sahəsində beynəlxalq əməkdaşlığa açıqdır



**Energetika naziri Pərviz Şahbazov Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə keçirilən "Asiya Enerji Nazirlərinin 8-ci Görüşü"ndə Azərbaycanı təmsil edib.**

Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, nazir "Rəqabətli və məhsuldar enerji üçün yeni texnologiyaların rolu" mövzusunda çıxış edib. O, çıxışında növbəti 20 ildə enerjiyə tələbatın ağırlıq mərkəzinin Asiya regionuna düşəcəyi ilə bağlı proqnozlara istinad edərək enerjiyə artan tələbatın ödənilməsi ilə eyni vaxtda karbon emissiyalarının azaldılması kimi məsələlərin həlli baxımından tədbirin əhəmiyyətini qeyd edib.



Dünya enerji sistemində texnologiyaların böyük dəyişikliklərə yol açdığını vurğulayan nazir sənaye üsulu ilə ilk neftin çıxarılmasından bu günədək Azərbaycanın enerji sektorunda texnoloji yeniliklərin tətbiqi ilə bağlı təcrübəsini bölüşüb. Dünyanın ən nəhəng infrastruktur və qlobal enerji təhlükəsizliyi layihələrindən sayılan, artıq yekunlaşmaqda olan "Cənub Qaz Dəhlizi"ni və onun resurs mənbəyi - "Şahdəniz" yatağının işlənməsini qabaqcıl mühəndislik və texnoloji uğurun nümunələri kimi diqqətə çatdırıb.

Energetika naziri Azərbaycanın enerji ölkəsi kimi davamlı inkişafı üçün Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə ekoloji cəhətdən təmiz texnologiyalardan, bərpaolunan enerjidən istifadənin genişləndirilməsinə və energetika sektorunun liberallaşdırılmasına imkan yaradan islahatların həyata keçirilməsindən bəhs edib: "Bu gün Azərbaycanın enerji siyasətində izlənilən kurs təbii ehtiyatlarımızdan səmərəli, bərpaolunan alternativ enerji mənbələrindən isə tam şəkildə istifadəyə yönəlib. Ölkədə elektrik enerjisinin 92 faizini ənənəvi enerji resurslarından - təbii qazdan əldə edir. Bir tərəfdən, ən yeni texnologiyalar tətbiq etməklə təbii qazla işləyən elektrik stansiyalarında yüksək nəticələr əldə etmək, stansiyaların faydalı iş əmsalını yüksəltmək, enerji səmərəliyinə nail olunması istiqamətində tədbirlər görülür. Digər tərəfdən isə karbon emissiyalarını daha çox elektroenergetika sektorunun yaratdığını nəzərə alaraq elektrik enerjisinin istehsalında bərpaolunan enerji mənbələrinin payını artırmağa çalışırıq".

Nazir təmiz, məhsuldar və dayanıqlı enerji ilə dolu gələcəyin yaradılması üçün beynəlxalq əməkdaşlığın vacibliyinə də toxunub və Azərbaycanın bərpaolunan enerji sahəsində də belə bir əməkdaşlığa açıq olduğunu bildirib.

**AZƏRTAC**

# Dövlət Komitəsinin sədri vətəndaşları qəbul edib

**Sentyabrın 10-da Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev vətəndaşların növbəti qəbulunu keçirib.**



Komitədən AZƏRTAC-a bildiriblər ki, Rövşən Rzayev əksəriyyəti məcburi köçkün olan 40-dan çox vətəndaşı növbəlilik prinsipi əsasında fərdi qaydada qəbul edib, onların müraciətlərini dinləyib. Müraciətlər mənzil-məişət problemləri, vahid aylıq müavinət, status, məşğulluq və digər məsələlərlə bağlı olub. Bütün müraciətlər müvafiq qaydada qeydə alınıb və rəsmiləşdirilib.

Vətəndaşlara bildirilib ki, hər bir müraciət araşdırılacaq, qanunauyğun tədbirlər görüləcək və bu barədə onlara məlumat veriləcək.

Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyev məcburi köçkünlərin problemlərinin həllini sosial siyasətin başlıca istiqamətlərindən biri kimi müəyyənləşdirib. Onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün ardıcıl tədbirlər həyata keçirilir, müasir tipli qəsəbələr salınır, hər il minlərlə ailə yeni mənzilə köçürülür. Birinci vitse-prezident xanım Mehriban Əliyevanın tapşırığı əsasında, məcburi köçkünlərin müvəqqəti məskunlaşma yerlərində müntəzəm monitorinqlər aparılır, ən ağır şəraitdə yaşayanlar müəyyənləşdirilir və onlar yeni mənzillərə birinci növbədə köçürülürlər.

Qeyd edilib ki, məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün respublikanın müxtəlif bölgələrində yaşayış binalarının tikintisi davam etdirilir.

**AZƏRTAC**

# İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin nümayəndələri Dağlıq Qarabağ münaqişəsi barədə məlumatlandırılıb

**Sentyabrın 10-da Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədrinin müavini Fuad Hüseynov ölkəmizdə səfərdə olan İnsan Hüquqları üzrə Avropa Məhkəməsi Qərarlarının İcrası Departamentinin rəhbəri Veronika Kotek və onun müavini Klare Oveylə görüşüb.**

Komitədən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi kökləri və mövcud vəziyyəti, Ermənistanın işğalçılıq siyasəti nəticəsində ölkəmizdə yaranan qaçqın və məcburi köçkün problemi, bu problemin idarə edilməsi sahəsində əldə olunmuş təcrübə barədə qonağa ətraflı məlumat verilib. Diqqətə çatdırılıb ki, BMT Təhlükəsizlik Şurasının, ATƏT-in, AŞPA-nın, İƏT-in, Avropa Parlamentinin və digər qurumların Ermənistanın işğalçılıq siyasətini pisləyən, Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən qərar və qətnamələri hələ də kağız üzərində qalır. Təcavüzkar Ermənistanın bir milyondan çox azərbaycanlının beynəlxalq sənədlərdə təsbit edilmiş əsas hüquqlarını pozması faktına dünya ictimaiyyətinin laqeyd münasibəti təəccüb və təəssüf hissi doğurur. İnsan Hüquqları üzrə Avropa Məhkəməsi azərbaycanlı qaçqınlara və məcburi köçkünlərə qarşı törədilən cinayətlərə və hüquqpozmalara görə Ermənistana qarşı təsirli tədbirlər görməlidir. Görüşdə bu məhkəmənin Ermənistanın silahlı təcavüzü nəticəsində zərər çəkmiş Azərbaycan vətəndaşlarının hüquqlarının bərpasına çağıran "Çıraqov və digərləri Ermənistana qarşı" işi ilə bağlı 2015-ci il 16 iyun tarixli qərar qəbul etdiyi xatırladılıb.

Qeyd olunub ki, Azərbaycan dövləti qaçqınların və məcburi köçkünlərin sosial problemlərinin həllini prioritet məsələ elan edib. Prezident İlham Əliyevin rəhbərliyi ilə bu sahədə genişmiqyaslı tədbirlər həyata keçirilir. Qaçqınların və məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, məşğulluğunun təmin edilməsi istiqamətində dövlət proqramı icra olunur. Bildirilib ki, Birinci vitse-prezident xanım Mehriban Əliyeva tərəfindən məcburi köçkünlərin mənzil, təhsil, sağlamlıq problemlərinin həllinə xüsusi diqqət və qayğı göstərilir. Hələ də ən ağır şəraitdə yaşayan məcburi köçkünlər Mehriban Əliyevanın tapşırığına uyğun olaraq, yeni mənzillərlə birinci növbədə təmin olunurlar. İndiyədək 300 minə yaxın qaçqın və məcburi köçkün üçün müasir tipli və bütün zəruri infrastrukturla təchiz olunmuş 105 qəsəbə salınıb, bu məqsədlə yeni yaşayış komplekslərinin inşası davam etdirilir.

Səmimi görüşə görə öz təşəkkürlərini bildirən qonaqlar münaqişənin tezliklə həllini tapmasının vacibliyini vurğulayaraq Azərbaycanın qaçqın və məcburi köçkünlərin problemlərinin həlli ilə bağlı gördüyü işləri yüksək qiymətləndiriblər.

Görüşdə, eyni zamanda, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

# Bağçalarda qışa hazırlıq



Paytaxtda qışa hazırlıq tədbirləri çərçivəsində Bakı Şəhər İcra Hakimiyyətinin qurumlarında, o cümlədən Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsinin tabeliyində olan uşaq bağçaları və uşaq evlərində də qışa hazırlığın, burada mövcud sanitar-gigiyenik və epidemioloji vəziyyətinin öyrənilməsi məqsədilə Bakı Şəhər İcra Hakimiyyətinin başçısı tərəfindən sərəncam imzalanmış, müvafiq komissiya yaradılmışdır.

Sərəncama uyğun olaraq Komissiya tərəfindən uşaq bağçalarına baxışlar keçiriləcək, bağçaların binaları, dam örtüyünün, istilik sistemlərinin vəziyyəti yoxlanılacaqdır. Ərzaq təchizatı, saxlanma şəraiti, qidalanma məsələləri, uşaqların sağlamlıq səviyyəsi, infeksion xəstəliklərdən qorunma, profilaktika tədbirləri və digər məsələlərə xüsusi fikir veriləcəkdir.

Komissiyanın rəyi araşdırılacaq və müvafiq tədbirlər görüləcəkdir.

**Bakı Şəhər İcra Hakimiyyəti Mətbuat Xidməti.**

# Məhsul stadionunda təmir işlərinə başlanılır

**Yasamal Rayon İcra Hakimiyyətindən verilən məlumata əsasən, paytaxtın Yasamal rayonu, İdman-Sağlamlıq Kompleksində ("Məhsul" stadionu) və ətraf ərazidə əsaslı təmir və tikinti işləri başlanmışdır.**

Bununla əlaqədar bildirilir ki, Yasamal rayonunun mərkəzində yerləşən və son illər ərzində təmirsiz qalan azsaylı idman məkanlarından biri olan bu stadion artıq uzun illərdir ki, baxımsız qalması səbəbindən pis vəziyyətə düşmüşdür. Buna görə burada hər hansı idman tədbirlərin keçirilməsi mümkünsüz olmuş, stadion gecə saatlarında tüfeyli həyat tərzi keçirən şəxslərin toplaşma yerinə çevrilmiş və bu da ətraf binalarda yaşayan sakinlərin narazılığına səbəb olmuşdur.

Sakinlərin çoxsaylı müraciətləri nəzərə alınmış, həmçinin stadionu müxtəlif idman yarışları üçün yararlı vəziyyətə salmaq, burada idman qurğularını, ot örtüyünü yeniləmək məqsədilə Yasamal rayonu, İdman-Sağlamlıq Kompleksində ("Məhsul" stadionu) əsaslı təmir işlərinə başlanmışdır.

**Yasamal Rayon İcra Hakimiyyəti.**

# Azərbaycan alimi Turan Elmlər Akademiyasının akademiki seçilmişdir



Turan Elmlər Akademiyasının rəyasət heyətində azərbaycanlı alim, tibb elmləri doktoru, professor Maqsud Səfər oğlu Qasımov tibb sahəsində xidmətlərinə görə yekdilliklə Turan Elmlər Akademiyasının akademiki seçilmişdir.

Özbəkistan EA-nın nümayəndəsi, akademik Səxavət Qorciyev tərəfindən azərbaycanlı alimə akademik diplomu və döş nişanı təqdim edilmişdir.

**"Respublika".**



**Maqsud Qasımov** 1932-ci il noyabr ayının 21-də Qərbi Azərbaycanın Zəngibasar mahalının Zəngilər kəndində anadan olmuşdur. Böyük Vətən müharibəsi illərində 12 yaşında ikən əmək fəaliyyətinə başlamış və rayon mərkəzindəki (keçmiş Uluxanlıda) orta məktəbi bitirmişdir. Ali tibbi təhsil almaq üçün Bakıya gələn M.Qasımov 1956-cı ildə Azərbaycan Tibb Universitetini bitirdikdən sonra onu təyinatla Tacikistan Respublikasına işə göndərirlər. Gənc Maqsud Tacikistanda çalışdığı 1956-1966-cı illərdə özünü bacarıqlı həkim, yaxşı təşkilatçı kimi göstərir.

Bu illər ərzində o, Tacikistan Respublikasının Moskovski rayonunda əvvəl Sanitar-Epidemioloji Stansiyasının baş həkimi, sonra rayon səhiyyə şöbəsinin müdiri və həmin rayonun baş həkimi vəzifələrində çalışır. 1965-ci ildə praktiki işdən ayrılmadan Tacikistan Elmlər Akademiyasının Ölkə Patalogiyası İnstitutunun rəhbərliyi ilə Tacikistan Respublikasının cənub rayonlarında kolxozçuların qidalanmasının səmərələşdirilməsi mövzusunda elmi iş aparmış və nəticədə Alma-Ata Tibb İnstitutunun Elmi Şurasında namizədlik dissertasiyası müdafiə etmişdir.

1966-cı ildə Vətənə qayıdan M.Qasımov Azərbaycan Tibb Universitetinin Ümumi gigiyena və qidalanma gigiyenası kafedralarında işləmişdir.

1970-1980-ci illər Bakı şəhərinin baş sanitar həkimi vəzifəsində səmərəli fəaliyyət göstərmişdir. Eyni zamanda, o, Tibb Universitetinin Qidalanma gigiyenası kafedrasında müəllim kimi fəaliyyətini davam etdirmişdir.

O, 1980-1994-cü illərdə M.Ə.Mirqasımov adına Respublika Klinik Xəstəxanasında baş həkim vəzifəsində çalışmışdır.

1993-cü ildən tibb elmləri doktoru, 1997-ci ildən Tibb Universitetinin Qidalanma və kommunal gigiyena kafedrasının professorudur.

1994-1997-ci illərdə Azərbaycan Respublikası səhiyyə nazirinin müavini, respublikanın baş dövlət sanitariya həkimi olmuşdur. O, 1997-2011-ci illərdə Səhiyyə Nazirliyinin Respublika Taun Əleyhinə Stansiyasının direktoru vəzifəsində uğurla çalışmışdır.

M.Qasımov Bakı şəhər əhalisi aqlomerasiyasının rekreasiya cəhətdən təmin edilməsi mövzusunda doktorluq dissertasiyasını başa çatdırmış və həmin əsər çap olunaraq (1996) geniş oxucu kütləsinə təqdim edilmişdir. Sonradan alim bu mövzu üzərində tədqiqatlarını davam etdirərək 2007-ci ildə "Abşeron yarımadası əhalisinin rekreasiya təminatı" (yenidən işlənmiş və əlavələr edilmiş ikinci nəşri) kitabını çap etdirmişdir.

"Ümumi dietologiyanın əsasları" (M.Qasımov və K.Qasımova. Bakı, 1996) dərsliyi, Azərbaycan kulinariyası əsasında yazılmış "Dietik yeməklər" kitabı tibb elminin uğurlarındandır (M.S.Qasımov, K.A.Qurbanov və K.Q.Qasımova. Bakı, 1995). Bundan əlavə, Maqsud Qasımovun "Oxuyun və düşünün" adlı elmi-kütləvi əsəri də (Bakı, 1991) oxucular tərəfindən böyük maraqla qarşılanmışdır.

Artıq bədən çəkisi və piylənmə ilə yanaşı gedən ürək qan-damar sistemi, şəkərli diabet, qalxanvarı vəzin funksiyasının pozulması xəstəliklərində pəhriz, Azərbaycan milli mətbəxində pəhriz, qidalanmağa aid kitabları - Azərbaycan və rus dillərində, 2004-cü il Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən dərslik kimi nəşr olunaraq respublikada yayılmışdır. Bundan başqa, M.Qasımov Səhiyyə Nazirliyinin tapşırığı əsasında çox böyük əhəmiyyətə malik "Sahibkarlar üçün sanitariya və gigiyena qaydaları" (metodik tövsiyələr) adlı kitab nəşr etdirmişdir (Bakı, 2009-cu il). M.Qasımovun "Dietik yeməklər" kitabı məqsədyönlü qidalanmanın elmi əsaslarından bəhs edir.

Maqsud Qasımov 5 elmi monoqrafiya, 14 tədris vəsaiti kitabı, 5 dərslik, 160 elmi əsərin müəllifidir. M.Qasımovun bilavasitə rəhbərliyi ilə onlarca həkim doktorluq, namizədlik dissertasiyası müdafiə etmişdir. O, səhiyyə sahəsində uzun illər göstərdiyi xidmətlərinə görə "Qırmızı Əmək Bayrağı", "Xalqlar dostluğu", "Şərəf nişanı" ordenləri, "Əmək rəşadəti" medalı, akademik Y.Məmmədəliyev adına medal və mükafat, Hacı Zeynalabdin Tağıyev fəxri diplom və Səhiyyə Nazirliyinin fəxri fərmanları ilə təltif olunmuşdur.

M.Qasımov işlədiyi mövzulara, qaldırdığı problemlərə bir qayda olaraq zaman-zaman təkrar qayıdır, onu daha da dolğunlaşdırır, müasirləşdirir. "100 il son hədd deyil" (rus və Azərbaycan dillərində), "Sağlam həyat tərzi uğrunda" və başqa sanballı kitablar bu qəbildəndir.

Alimin həyatında və siyasi fəaliyyətində Yeni Azərbaycan Partiyası olduqca mühüm yer tutur. 1993-cü ilin yanvarından Maqsud Qasımov YAP-ın fəal üzvüdür.

Respublika Taun Əleyhinə Stansiyaya rəhbərlik etdiyi 14 il (1997-2011) ərzində dəfələrlə ABŞ-a və bir sıra Qərb dövlətlərinə səfər edib. Respublikamızda bioloji təhlükəsizliyin azaldılması ilə bağlı ABŞ-da müəyyən dairələrlə danışıqlar aparıb, seminarlarda iştirak edib, məruzələr söyləyib, çıxışları həmin ölkənin KİV-lərində çap olunub. Bütün bunlar respublikamızın Səhiyyə Nazirliyi və ABŞ Müdafiə Nazirliyi arasındakı qarşılıqlı anlaşma protokoluna əsasən həyata keçirilib. M.Qasımov tam 10 il (2001-2011) MDB-yə daxil olan ölkələrin sərhədlərinin Sanitar Mühafizə Şurasında respublikamızı ləyaqətlə təmsil edib. Bu müddətdə o, Rusiyanın paytaxtı Moskvada və digər bir sıra şəhərlərində, o dövr üçün MDB üzvü olan Gürcüstanda, Qazaxıstanda, Qırğızıstanda, Rusiyanın Saratov, Sankt-Peterburq, Stavropol və s. vilayətlərində, Türkmənistanda və digər ölkələrdə səfərlərdə olub, respublikamızı təmsil etmişdir. Alim Türkiyə Qidalanma Mərkəzinin dəvəti ilə 2 dəfə bu ölkəyə səfər edərək 55 ölkənin iştirak etdiyi beynəlxalq "Qida" konfransında iştirak və çıxış edib.

Görkəmli alim Maqsud Qasımov 30 ilə yaxındır ki, Respublika Ağsaqqallar Şurasının fəal üzvüdür.

**Şükür ƏLİZADƏ,**
**"Respublika".**

# Ali məktəblərə qəbul olunan tələbələrlə görüş

## Mingəçevir

Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov Heydər Əliyev Mərkəzinin iclas



zalında 2019-cu ildə ali məktəblərə daxil olan tələbələrlə görüş keçirdi. Şəhər başçısı qeyd etdi ki, Azərbaycan təhsilinin inkişaf dövrü 1993-cü ildən, ulu öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişindən sonra başlayıb. O dövrdə həyatın hər sahəsində olduğu kimi, təhsil sahəsində də tənəzzül var idi və ulu öndərin uzaqgörən siyasəti sayəsində inkişaf strategiyasına təkan verilib. Bildiyiniz kimi, on ildən artıqdır ki, ölkəmizin Prezidenti İlham Əliyevin imzaladığı sərəncamlara, tapşırıqlara əsasən, həmçinin Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın dəstəyi ilə ölkəmizin hər yerində müasir formada, ən son avadanlıqlarla təchiz olunmuş ümumtəhsil məktəbləri tikilir, əsaslı təmir edilir. Mingəçevirdə də son illərdə yeni məktəb binaları inşa olunmuş, bəzi məktəblər isə əsaslı təmirdən sonra müəllim və şagirdlərin istifadəsinə verilmişdir. Ötən tədris ilində məzun olan 760 nəfərin 630-u ali məktəblərə sənədlərini vermiş, 460 gənc tələbə adını qazanmışdır. Mən bu münasibətlə tələbələri, onların valideynlərini və müəllimlərini bir daha təbrik edirəm. İnanıram ki, onlar ali təhsildə də uğurlar qazanacaq, vətənimizin layiqli vətəndaşları olacaqlar.

Sonda qəbul imtahanlarında 600-dən artıq bal toplayan tələbələrə hədiyyələr verildi.

**İlham PƏNAHOV,**
**"Respublika".**

## Şirvan

Şəhərdəki 16 saylı məktəbin kimya-biologiya təmayüllü 11-ci sinfini bitirmiş 20 məzundan 19-u tələbə adını qazanmışdır. Şirvan şəhərinin yay kino-teatrında keçirilən məzunlarla ənənəvi görüşdə sinif rəhbəri Aygün Səmədova çıxış edib səvincini görüş iştirakçıları ilə bölüşdü:

- Pedaqoji kollektivimizin çəkdiyi zəhmət hədər getməyib. Tələbə adını qazanan 19 nəfər məzunun, demək olar ki, hamısı ölkənin nüfuzlu ali məktəblərinə qəbul olunub.

Məzunlarla görüşü giriş sözü ilə açan şəhər təhsil şöbəsinin müdiri Rövşən Allahverdiyev yola saldığımız 2018-2019-cu tədris ilində pedaqoji kollektivlərin əldə etdiyi nailiyyətlərdən danışdı :

- Hər iş öz nəticəsi ilə ölçülür. Təhsildə əldə olunan nəticələr sevindiricidir. Dövlət başçısı cənab İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ölkədə təhsilin inkişafına göstərdiyi qayğı və diqqət öz bəhrəsini verməkdədir. Bu il məktəbimizin məzunu olan 559 abituriyentdən 314 nəfəri ali məktəblərə qəbul olunmuşdur. Onlardan 56 nəfəri 500-dən, 7 nəfəri 600-dən çox bal toplamışdır.

21 saylı tam orta məktəbin məzunu Cavid İsmayılovun çıxışı hərarətlə qarşılandı. Cavid 660 balla BDU-nun hüquq fakültəsinə qəbul olunmuşdur. Valideynlər adından çıxış edən 9 saylı tam orta məkəbin müəllimi Təhminə Məmmədova müəllim əməyinə verilən yüksək qiymətə görə valideynlər adından ölkə başçısına minnətdarlığını bildirdi.

Şəhər icra hakimiyyətinin başçısı Mərdan Camalov tələbə adını qazanmış məzunları, pedaqoji kollektivləri, valideynləri təbrik edib son illərdə şəhərin ümumtəhsil məktəblərində aparılan geniş miqyaslı təmir və yenidənqurma işlərindən, məktəblərin texniki bazasının möhkəmləndirilməsi tədbirlərindən danışdı. İcra başçısı ölkə Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın müəllim əməyinə verdikləri yüksək qiymətə, qayğı və diqqətə cavab olaraq pedaqoji kollektivlərin bundan sonra da yüksək göstəricilər əldə edəcəklərinə inamlı olduğunu bildirdi.

Tələbə adını qazanmış məzunlara xatirə olaraq qiymətli hədiyyələr verildi.

**Tofiq HÜSEYN,**
**"Respublika".**

## *Mingəçevir xəbərləri*





Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılovun sakinlərlə növbəti səyyar görüşü Vaqif Abdullayev küçəsində oldu. Sakinləri salamlayan şəhər rəhbəri ölkə Prezidenti İlham Əliyevin tapşırığına əsasən şəhərimizin ayrı-ayrı məhəllələrində keçirilən səyyar görüşlərin əsas məqsədinin insanları narahat edən problem və çətinlikləri üzə çıxarmaq olduğunu bildirdi. Qeyd etdi ki, ölkə Prezidenti İlham Əliyevin imzaladığı sərəncamlara əsasən əhalinin sosial rifah halının yaxşılaşdırılması istiqamətində geniş işlər görülüb. Cari ilin əvvəlindən bəri pensiyaların artırılması, minimum əməkhaqqının iki dəfə artırılması, şəhid ailələrinə birdəfəlik müavinətlərin verilməsi, qaçqın və məcburi köçkünlərə verilən müavinətlərin artırılması, problemli kreditlərin həlli əhaliyə göstərilən diqqət və qayğının bariz nümunəsidir. Ötən illər ərzində regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində Mingəçevir şəhərində ardıcıl işlər görülüb. Çoxmərtəbəli binaların dam örtükləri əsaslı təmir edilib, parklar, xiyabanlar, istirahət bağları salınıb və abadlaşdırılıb, bir çox binaların fasadları üzlənərək rənglənib. Şəhərdə 5, energetiklər qəsəbəsində 6 məhəllə tam abadlaşdırılaraq işıqlanma sistemi ilə təchiz edilib, yaşıllıq sahələri genişlənib. Hazırda isə şəhərimizin gis-səsində 2 hektarlıq ərazidə istirahət parkının salınması, Dostluq parkında isə milli-mənəvi dəyərlərimizi əks etdirən nümunələrin yaradılması işləri gedir.

* * *

Heydər Əliyev Mərkəzinin ikinci mərtəbəsində Azərbaycan Yazıçılar Birliyi Mingəçevir bölməsi üzvləri ilə şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılovun görüşü keçirilmişdi. Görüşdən əvvəl icra hakimiyyətinin başçısı yerli yazarların əsərlərindən ibarət kitab sərgisi ilə tanış olmuşdur. Görüşü açan icra başçısı qeyd etdi ki, belə görüşlər şəhərimizin müxtəlif məhəllələrində ənənəvi xarakter almışdır. Bu görüşlərdə insanları narahat edən məsələlər qaldırılır və onların mərhələ-mərhələ həlli həyata keçirilir. Bu günədək şəhərimizin müxtəlif yerlərində sakinlərin rahatlığı üçün 17 nümunəvi məhəllə istifadəyə verilmişdir. Eyni zamanda, "Dövlət rəmzləri" muzeyi tikilir və onun ətrafında 200 nəfərlik örtülü səhnə və musiqili fəvvarə istifadəyə veriləcəkdir. "Dostluq" parkında abadlıq-quruculuq işləri də davam etməkdədir. Burada uşaqlar üçün əyləncə meydançaları, söhbətgahlar, insanların istirahəti üçün oturacaqlar və yaşıllıqlar salınacaq.

Şəhər icra hakimiyyətinin başçısı Azərbaycan Yazıçılar Birliyi Mingəçevir bölməsində təmsil olunan yazarlarla da görüşün vacibliyinə toxundu. Bildirdi ki, bu bölmənin yaradılması şəhərimiz üçün əhəmiyyətli məsələdir. Ayrı-ayrı vaxtlarda bölmənin xəttilə keçirilən poeziya və yubiley gecələri, yeni kitab təqdimatı mərasimləri əlamətdar hadisə kimi xoş xatirəyə çevrilib.

Görüşdə AYB Mingəçevir bölməsinin sədri İsmayıl İmanzadə və digər yazar və şairlər çıxış edərək bugünkü səmimi görüşə görə minnətdarlıq bildirib, öz ürək sözlərini bölüşdülər.

* * *

Mingəçevir şəhər stadionunda Azərbaycan Respublikası Ombudsmanın təşəbbüsü ilə respublikamızda keçirilən sülh aylığı çərçivəsində Mingəçevir Şəhər İcra Hakimiyyəti başçısı yanında yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın xətti ilə tədbir təşkil olunmuşdur. "Qoy həmişə günəş olsun" devizi ilə həyata keçirilən bu tədbirə MİS-lərin ərazisində yaşayan uşaq və yeniyetmələr, məktəbəqədər tərbiyə müəssisələrinin uşaqları cəlb olunmuşlar. Uşaq və yeniyetmələrin, eləcə də valideynlərin böyük marağına səbəb olan asfalt üzərində rəsm, eləcə də əl işlərindən ibarət sərgi tədbirə gələnlərin diqqətini cəlb edirdi. Asfalt üzərində rəsm əsərlərində əsasən uşaqların sülh arzuları, istəkləri tərənnüm olunurdu.

Şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov müsabiqəyə təqdim olunan rəsm əsərləri və əl işləri ilə yaxından tanışlıqdan sonra çıxış edərək müasir dövrdə insanların sülhə, əmin-amanlığına ehtiyacı olduğunu bildirdi və rəsm müsabiqəsində uşaqların bu sahəyə aid düşüncələrini yüksək qiymətləndirdi. Tədbirdə Uşaq-Gənclər və İnkişaf Mərkəzinin və eləcə də uşaq bağçalarının körpə fidanlarının ifalarında səslənən şeir və mahnılar iştirakçıların ovqatına xoş təsir bəxş etdi. Müsabiqənin sonunda 3 nəfər qalibə şəhər icra hakimiyyətinin diplomu, 10 nəfərə isə hədiyyələr təqdim olundu.

**İlham PƏNAHOV,**
**"Respublika".**







# Göyçayda təhsil işçilərinin regional konfransı

**Bu günlərdə Göyçayda 3 rayonun - Göyçay, Ucar və Ağsu rayonları təhsil işçilərinin ənənəvi sentyabr konfransı keçirilib.**




Tədbirdən əvvəl konfrans iştirakçıları şəhərin Heydər Əliyev mərkəzində ulu öndərin abidəsini ziyarət edərək, xatirəsini sükutla yad ediblər.

Tədbir Azərbaycanın Dövlət Himninin səsləndirilməsi ilə başladı. Müəllimləri yeni dərs ili öncəsi təbrik edən orta məktəb şagirdlərindən bir qrupunun ifasında şeirlər söyləndi, maraqlı musiqi kompozisiyası təqdim edildi.

Konfrans iştirakçılarını Yeni dərs ili münasibətilə təbrik edən Təhsil Nazirliyinin aparat rəhbərinin müavini Fərzəli Qədirov müəllimlərə işlərində uğurlar arzuladı. Qeyd edildi ki, konfransın 3 rayonun təhsil işçilərinin iştirakı ilə təşkil edilməsi bu rayonların müəllimləri arasında təcrübə mübadiləsinin, əməkdaşlığın qurulması baxımından çox faydalıdır. Nazirlik rəsmisi eyni zamanda Təhsil Nazirliyinin cari il üçün hədəfə aldığı proqram xarakterli məsələləri də diqqətə çatdırdı.

Sonra Ağsu, Ucar və Göyçay rayonlarının təhsil şöbələrinin müdirləri hesabat məruzələri ilə çıxış etdilər. Məruzələrdə adıçəkilən rayonlarda təhsilin mövcud vəziyyəti, qazanılan uğurlar və problemlər geniş təhlil edildi. Son dövrlər ölkə başçısı cənab İlham Əliyevin hərtərəfli diqqət və qayğısı sayəsində ucqar kəndlərdə belə modul tipli məktəblərin inşa edildiyi, qəzalı və təmirə ehtiyacı olan məktəblərin yenidən qurulduğu dilə gətirildi. Orta məktəblərdə kiçik akademiyaların fəaliyyətinin canlandırılması vurğulandı. Təmayüllü siniflərdə təhsilin səviyyəsinin artırılmasının vacibliyinə, vaxtaşırı monitorinqlərin keçirilməsinə diqqət yönəldildi. Bu sırada müəllimlərin üzərinə düşən məsuliyyət xüsusi qeyd edildi.

Yekunda Azərbaycan Respublikası Təhsil Nazirliyinin nümayəndəsi F.Qədirov konfrans iştirakçılarını maraqlandıran suallara cavablandırdı.

**Maarif RZAYEV,**
**"Respublika".**

# Mətbuat nümayəndələri "TurAz Qartalı-2019" birgə təlimlərinin gedişini izləyiblər

**"TurAz Qartalı-2019" birgə taktiki-uçuş təlimlərində Azərbaycan və Türkiyənin aviasiya vasitələri iştirak edir. Sentyabrın 10-da mətbuat nümayəndələri "TurAz Qartalı-2019" birgə təlimlərinin gedişini izləyiblər.**



AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında illik hərbi əməkdaşlıq planına əsasən, sentyabrın 2-dən başlayan təlimlərə "MiQ-29", "F-16", "Su-25", "P-235", "Kasa" təyyarələri, "Mi-35", "Mi-17", "Sikorski UH-70", "CH-47" "Çinok" və "ATAK/AH-1" helikopterlərindən ibarət 30-dək aviasiya vasitəsi və 300-dək hərbi qulluqçu cəlb edilib.

Təlimlərdə iştirak edən hər iki ölkənin hərbi aviasiyası müştərək fəaliyyətlərin planlaşdırılması, əməliyyatların keçirilməsi üzrə qarşılıqlı fəaliyyət, döyüş uzlaşması imkanlarının öyrənilməsi, axtarış-xilasetmə tədbirlərinin icrası, havadan zərbələr endirməklə yer hədəflərinin məhv edilməsi, hava döyüşlərinin icrası və digər tapşırıqların yerinə yetirilməsi məqsədilə uçuşlar həyata keçirir.

Azərbaycan Hərbi Hava Qüvvələrinin zabiti Faiq Əliyev jurnalistlərə müsahibəsində bildirib ki, sentyabrın 10-da keçirilən təlimlərdə iki ədəd "F-16" qırıcı təyyarəsi Azərbaycanın hava məkanında təyin edilmiş bölgədə "MiQ-29" və "Su-25" təyyarələri ilə görüşərək önləmə və "Hava-Hava-Yer" tapşırıqlarını yerinə yetirməklə şərti düşmən hədəflərinə zərbələr endiriblər.

Faiq Əliyev bildirib ki, əvvəlki illərdə keçirilən təlimlərdən fərqli olaraq builki təlimlərdə Türkiyə Respublikasının istehsalı olan "ATAK" helikopterləri də iştirak edir. Təlimlərin gələn il Türkiyə Respublikasında keçirilməsi nəzərdə tutulur.

Təlimlər sentyabrın 16-dək davam edəcək.

**AZƏRTAC**

# İkinci Nəsimi - şeir, incəsənət və mənəviyyat Festivalının proqramı açıqlanıb

**Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə sentyabrın 28-dən oktyabrın 1-dək keçiriləcək Nəsimi - şeir, incəsənət və mənəviyyat Festivalında bir sıra yeniliklər olacaq.**

AZƏRTAC xəbər verir ki, ikinci ildir təşkil olunan festival çərçivəsində Bakıda və şairin doğulduğu Şamaxıda 30-dək tədbir keçiriləcək.

Festivalda bu il ilk dəfə Nəsiminin seçilmiş qəzəlinə bir sıra tədqiqatçı və şeir bilicisi öz şərhini verəcək, həmin təfsirlərin müzakirəsi olacaq. "Mən ki, dərvişəm, fəqirəm, padişahi-aləməm" qəzəlinə Azərbaycan, Rusiya, İran, Türkiyə və Misirdən 10-dan çox müəllif öz təhlillərini təqdim edəcək. Festivalda beynəlxalq miqyasda tanınmış nəsimişünaslar, şairlər, alimlər və filosoflar mühazirələrlə çıxış edəcəklər. Rusiyalı psixoloq Aleksey Sıtnikov, ABŞ-dan olan tədqiqatçı Alan Qodlas, italiyalı şair David Rondoni, Azərbaycan əsilli, Böyük Britaniyada yaşayan filosof və rəssam Zeyqəm Əzizov mühazirələrində Nəsimi fəlsəfəsi ilə keçmişə və müasir dövrə aid müxtəlif nəzəriyyə və konsepsiyalar arasında paralellər aparacaqlar. Festival çərçivəsində, həmçinin almaniyalı alim, tanınmış nəsimişünas Mixael Hess və Böyük Britaniyada yaşayan tədqiqatçı, azərbaycanlı Orxan Mirqasımovun Nəsimi və hürufilik haqda kitabları təqdim ediləcək.

Builki festivalda kino sahəsində dinlərarası dialoq üzrə məşhur beynəlxalq SİGNİS mükafatına layiq görülmüş filmlərin nümayişi olacaq. Finlandiyalı rejissor Aki Kaurisməkinin "Ümidin o biri üzü" filmində fərqli dinlərə, mədəniyyətlərə və həyat tərzlərinə malik insanların anlaşması və dostlaşması əksini tapıb.

Silsilə tədbirlər çərçivəsində sentyabrın 28-də "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruq İdarəsi və İslam Tarixi, Mədəniyyəti və İncəsənəti Araşdırma Mərkəzinin (İRCİCA) birgə təşkilatçılığı ilə "El sənəti" I Bakı Beynəlxalq Ənənəvi Sənətkarlıq Festivalı da start götürəcək.

Nəsimi festivalı çərçivəsində bu il həm də uşaq evləri və internat məktəblərinin sakinləri və məzunlarının iştirakı ilə "ümidin yaradılması" sosial-mədəni layihəsi həyata keçiriləcək. Layihə üzrə dizayn kurslarına cəlb olunmuş 30 iştirakçı öz arzularını təsvir vasitəsilə əks etdirib və onların əl işləri sonra köynəklər üzərinə köçürülüb. Bu köynəklərin festival çərçivəsində nümayişi və satışı təşkil olunacaq. Layihənin məqsədi uşaq evləri və internat məktəblərinin sakinləri və məzunlarının yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək və onlara məşğulluq imkanları yaratmaqdır.

Festival günlərində Bakı və Şamaxıda bir sıra sərgilər də olacaq: sentyabrın 28-də Bakıda Şirvanşahlar sarayında açılacaq "İrfani sirlər" sərgisində Azərbaycan, Türkiyə, Fransa və Özbəkistandan olan 10 rəssam və heykəltəraşın əsərləri nümayiş etdiriləcək. Saray ərazisini əhatə edən ekspozisiyada mənəvi həyat və ruh təkamülünün sirlərinə həsr olunan video-art, qrafika nümunələri, instalyasiya və kinetik obyektlər təqdim olunacaq.

Sentyabrın 30-da "Qala" Arxeoloji-Etnoqrafik Muzey Kompleksində "Daşın nəğməsi" IV Beynəlxalq heykəltəraşlıq simpoziumu, "Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğunda isə VIII Beynəlxalq "Tullantıdan sənətə" sərgisi açılacaq.

Qala qəsəbəsində istifadəsiz sənaye anbarının divarları üzərində işlənmiş rəsm əsərlərindən ibarət "Danışan divarlar" incəsənət layihəsinin ictimai təqdimatı olacaq. Bu layihə çərçivəsində Azərbaycan, Braziliya, Cənubi Afrika, İspaniya, Niderland və Fransadan olan rəssamların "urban/street art" (şəhər/küçə incəsənəti) janrında yaratdıqları əsərlər, Buzovna və Mərdəkan qəsəbələrindən olan yaradıcı uşaqların rəsmləri əsasında divar pannosu da nümayiş olunacaq.

Festival çərçivəsində Heydər Əliyev Mərkəzində Türkiyənin tanınmış rəssamı Ahmet Güneştekinin fərdi sərgisi açılacaq. Rəssamın məşhur "Ölümsüzlük otağı" ("Ölümsüzlük odası") əsəri də ekspozisiyada nümayiş olunacaq. Oktyabrın 1-də açılışı olacaq sərgi 2020-ci il martın 31-dək davam edəcək.

Şamaxı rayonunda isə "Şamaxı antologiyası" (1468, Britaniya Muzeyi, London) əlyazmasına dair sərgi açılacaq. XV əsrdə Şamaxının mədəni mərkəz olduğunu, burada yüksək kitab mədəniyyətinin mövcudluğunu nümayiş etdirən bu şeir məcmusu Azərbaycan miniatür sənətinin ən gözəl incilərindəndir. Əlyazmadakı miniatürlər sərgidə müxtəlif üsul və texnikalarla təqdim olunacaq.

Şamaxıda, həmçinin İmadəddin Nəsimiyə həsr olunan müasir incəsənət instalyasiyasının açılışı olacaq. Yüngül metal hissəciklərdən hazırlanan əsərin müəllifi rəssam Rəşad Ələkbərovdur.

Nəsimi Festivalı çərçivəsində bir sıra elan olunmuş müsabiqələrin nəticələri də açıqlanacaq: Azərbaycan Milli Xalça Muzeyinin söz ustadına həsr etdiyi xalça eskizi müsabiqəsinin yekun sərgisi açılacaq. Ekspozisiyada müsabiqənin qalibi olan 3 əsər əsasında toxunan xalçalar, təqdim edilən işlər arasından münsiflər heyətinin seçdiyi xalça eskizləri nümayiş olunacaq. Həmçinin Mədəniyyət Nazirliyinin "SÖZ" layihəsinin gənc şairlər arasında elan etdiyi Nəsimi ruhunda, yaxud bilavasitə onun şeirlərinə nəzirə olan ən yaxşı poetik əsər müsabiqəsinin nəticələri açıqlanacaq.

Festival çərçivəsində müxtəlif ölkələrin incəsənət xadimləri və qruplarının ifasında mənəviyyat axtarışlarını, dinlər və mədəniyyətlərarası dialoqu tərənnüm edən musiqi proqramları və tamaşalar da təqdim olunacaq. Bu proqramlarda ayrı-ayrı dövrlərə aid ruhani və müasir musiqi nümunələri səslənəcək, fiziki imkanları məhdud insanların sağlam şəxslərlə bərabərlik və birgəliyinin ifadəsi olan rəqsləri nümayiş etdiriləcək.

Festival çərçivəsində Almaniyanın "Horizonte" ansamblı, Əfqanıstanın "Zəhra" Orkestri, Kanadanın "Klara Furey" rəqs qrupu, Böyük Britaniyanın "Candoco" və "Lost Dog" rəqs qrupları, Estoniyanın "Tallinn Oğlanlar Xoru", İsrailin "Dudu Tassa & the Kuwaitis" qrupu maraqlı proqramlar təqdim edəcək.

Sentyabrın 29-da Şamaxının Meysəri kəndində Xalq artisti Nəzakət Teymurova Nəsimi poeziyası əsasında muğamlardan ibarət proqramla çıxış edəcək.

Həmin gün Azərbaycan Dövlət Filarmoniyasında isə Azərbaycanın tanınmış caz musiqiçisi Salman Qəmbərovun "Səmimi dialoqlar" layihəsi çərçivəsində Fransadan Mişel Qodar (serpent ifaçısı), Almaniyadan Marqrit Buxberger (barokko repertuarlı müğənni) və çinli Vu Vey (şenq ifaçısı) ilə birgə ifaları təqdim olunacaq.

Festival çərçivəsində sentyabrın 30-da Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzində səhnələşdirilmiş poeziya axşamı keçiriləcək.

Həmin gün Opera və Balet Teatrında isə Çinin Anhui əyalətinin Huicin Teatrının təqdimatında "İztirablı könül" tamaşası nümayiş olunacaq. Ənənəvi XVIII əsr üslubunda olan tamaşa özündə teatr sənəti və musiqi, eləcə də akrobatika və pantomim elementlərini birləşdirir.

Festivalın bağlanış mərasimi oktyabrın 1-də Heydər Əliyev Mərkəzində keçiriləcək. Proqramda Azərbaycan incəsənət xadimləri, həmçinin ABŞ, Türkiyə, İran, İordaniya və Mərakeşdən ənənəvi musiqi ifaçıları iştirak edəcəklər.

Qeyd edək ki, festival dahi Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin (1369-1417) yaradıcılığının tədqiqi və təbliği, onun fikir və düşüncələrinin müasirlikdə əksini izləmək məqsədi daşıyır və ilk dəfə 2018-ci ildə keçirilib.

Budəfəki festival həm də şairin 650 illik yubileyinə təsadüf edir. Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi ilə əlaqədar 2019-cu il "Nəsimi ili" elan olunub.

Nəsimi Festivalının proqramı ilə aşağıdakı linkə keçid etməklə tanış olmaq mümkündür- https://nasimifestival.live/az/program/.

**AZƏRTAC**

---

Bakı Xoreoqrafiya Akademiyası

Açıq Tenderə Dəvət Edir:

Tender 1 (bir) lot üzrə keçirilir:

Lot 1 - Kommunal və kommunikasiya xidmətləri xərci.

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar lot üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

İştirak haqqı: 50 manat

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

Dövlət Xəzinədarlıq Agentliyi
KOD: 210005
VÖEN: 1401555071
Müxbir Hesabı:
AZ41NABZ01360100000000003944
SWİFT: CTREAZ22
Bakı Xoreoqrafiya Akademiyası
Hesab: 2178201-002766
VÖEN: 1400151881
Təsnifat kodu: 142340
Səviyyə: 7

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

-Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;

-Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);

-Tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);

-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;

-İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;

-İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;

-İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;

-İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə Satınalan Təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 2.10.2019-cu il saat 17:00 tarixinə qədər və tender təklifi ilə bank təminatı sənədlərini 9.10.2019-cu il saat 17:00 tarixinə qədər PORTAL VASİTƏSİLƏ təqdim etməlidirlər.

İddiaçıların təklifləri 10.10.2019-cu il saat 15:00 tarixində açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.

Tender Komissiyası.

---

## "Azərbaycan Dəmir Yolları" QSC-nin Həkim-Sanitar Xidmətinin Yol Gigiyena və Epidemiologiya Mərkəzi

## KOTİROVKA SORĞUSU ELAN EDİR

**1.** Cari təmir işlərinin satınalınması

Zərflər 17 sentyabr 2019-cu il saat 14:30-da açılacaqdır.

**Ünvan:** *Bakı şəhəri, Biləcəri qəsəbəsi, Asəf Zeynallı küçəsi 35.*

**Tender Komissiyası.**

---

## Açıq tenderin nəticələri barədə məlumat

Azərbaycan Respublikasının Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu tərəfindən "Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun ofisi üçün avtomobillərin təmiri və ehtiyat hissələrinin alınması" üzrə "Perfomance Center Co" MMC qalib elan edilmiş və həmin təşkilat ilə 5 sentyabr 2019-cu il tarixində müvafiq satınalma müqaviləsi bağlanmışdır.

**Tender Komissiyası.**

---

## NOTIFICATION

In accordance with Articles 11.2 and 27.4 of the Law of the Republic of Azerbaijan "On Public Procurement", bids of all bidding companies were rejected due to inconsistency with the Compendium of General Provisions in the open tender procedure announced by the National Hydrometeorology Department of the Ministry of Ecology and Natural Resources on April 28, 2019 for the procurement of Lot-2 "Modernization of the marine hydrometeorological network".

**Tender Commission.**

---

## BİLDİRİŞ

Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Departamenti tərəfindən 28 aprel 2019-cu il tarixdə Lot-2 "Dəniz hidrometeoroloji şəbəkənin modernləşdirilməsi" işlərinin satın alınması məqsədi ilə elan edilmiş açıq tender prosedurunda bütün iddiaçı şirkətlərin tender təklifləri əsas şərtlər toplusunun tələblərinə uyğun olmaması səbəbindən "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun 11.2-ci və 27.4-cü maddələrinə əsasən rədd edilmişdir.

**Tender Komissiyası.**

---

## YARDIMLI ŞƏHƏR İƏD ÜZRƏ NÜMAYƏNDƏLİK 2019-cü İL ÜÇÜN RAYONDAXİLİ ABADLIQ İŞLƏRİNİN SATIN ALINMASI İLƏ ƏLAQƏDAR

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**LOT-1. RAYONDAXİLİ ABADLIQ İŞLƏRİNİN SATIN ALINMASI**

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, yuxarıda göstərilən Lot üzrə öz tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderə iştirak etmək istəyənlər Lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Yardımlı şəhəri, H.Əliyev küçəsi 152 ünvanda (Əlaqələndirici şəxs: Adiyev Rəfail Zeyni oğlu, telefon: 0-2520-6-27-39) ala bilərlər.

**LOT-1. 100,00 MANAT**

*Təşkilat: Yardımlı şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyi, Yardımlı rayon yerli xəzinədarlıq orqanı.*

*Hesab: AZ88AİİB32051019447500201175*
*VÖEN: 5600002021*
*Bank: "Kapitalbank" Yardımlı filialı*
*Kod: 200758*
*VÖEN: 9900003611*
*Müxbir hesabı:*
*AZ37NABZ01350100000000001944*
*S.W.İ.F.T. BİK AİİBAZ2X*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-Tenderdə iştirak etmək üçün yazılı mürüciət;*

*-Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*-Tender təklifi (zərflərin açılışı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);*

*-Tender təklifi dəyərinin 1 %-i dəyərində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır).*

*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*

*-iddiaçının con bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən məcbur olunmuş maliyyə hesabatının surəti;*

*-iddiaçının con bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

*-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*-iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalınmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 27 sentyabr 2019-cu il saat 11.00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 7 oktyabr 2019-cu il saat 18.00-a qədər Yardımlı şəhər inzibati ərazi nümayəliyinə (ünvan: Yardımlı şəhəri, H.Əliyev küçəsi 152.) təqdim etməlidirlər.

Göstərilən vaxtdan tez təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 8 oktyabr 2019-cu il tarixdə, saat 10.00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

---

## BİLDİRİŞ

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 07 avqust 2019-cu il tarixdə keçirilmiş "Xüsusi qayğıya ehtiyacı olan şəxslər üçün maarifləndirmə tədbirlərinin təşkili" adlı müsabiqənin qalibi Beynəlxalq Avrasiya Mətbuat Fondu olmuşdur.

---

Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin 21 iyul 2019-cu il tarixində Siyəzən Rayon Bölməsinin inzibati binasının tikintisi ilə əlaqədar tenderin nəticələri ləğv olunmuşdur.

**Tender Komissiyası.**

---

12 noyabr 2009-cu il tarixdə 001709-Q1-0001 saylı qeydiyyat nömrəsi ilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Binəqədi Rayon Qeydiyyat Şöbəsində qeydiyyata alınmış "Fidan körpələr evi və uşaq bağçası"nın təşkilati-hüquqi formasının dəyişdirilərək "Fidan körpələr evi və uşaq bağçası" Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrildiyini elan edir.

---

## ELAN

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "Əlilliyi olan şəxslərə sanatoriya-kurort putyovkalarının (yollayışların) alınması" adlı təkrar müsabiqə keçirir.

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.

İştirak haqqı yoxdur.

Maraqlanan təşkilatlar müsabiqənin əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün Bakı şəhəri, H.B.Zərdabi pr. 80 ünvanına yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri H.B.Zərdabi pr. 80 ünvanına 23 sentyabr 2019-cu il saat 17:00-dan gec olmayaraq təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

Müsabiqə 24 sentyabr 2019-cu il saat 11:00-da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində keçiriləcəkdir.

**Əlaqə telefonu:** *(012) 434-05-20*

**Müsabiqə Komissiyası.**

---

## "AZERGOLD" QSC

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 1 LOT üzrə keçirilir:**

**"AzerGold" QSC-nin orta və uzunmüddətli strateji planının hazırlanması üçün məsləhət xidmətinin satınalınması**

Tender iştirakçıları https://www.etender.gov.az dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzalar vasitəsilə daxil olmaqla tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Təkliflərin qiymətləndirilməsində analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti, aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi üçün zəruri potensial meyarlara üstünlük veriləcəkdir.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı - 500 manat**

*Benefisiar: AZERGOLD QSC*
*VÖEN: 1403467421*
*Hesab nömrəsi:*
*AZ85PAHA38020AZNHC0190068658*
*Bank: "PAŞA Bank" ASC*
*VÖEN: 1700767721*
*Müxbir hesab:*
*AZ82NABZ01350100000000071944*
*SWİFT: PAHAAZ22 Kod: 505141*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidir:

*1. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*2. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*

*3. Tender təklifi dəyərinin 1 %-i həcmində tender təklifinin təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*

*4. İddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*

*5. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və bank rekvizitləri;*

*6. Digər müvafiq sənədlər (Əsas Şərtlər Toplusunda müəyyən edilmiş müvafiq sənədlər).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 30 sentyabr 2019-cu il saat 15:00-a qədər, tender təklifi və bank təminatını isə 07 oktyabr 2019-cu il saat 15:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri 08 oktyabr 2019-cu il saat 15:00-da açılacaqdır.İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

*Qeyd: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

**Tender Komissiyası.**

---

Beyləqan rayonu, Mil qəsəbə sakini Qafarov Hüseyn Yusif oğlunun xüsusi mülkiyyətində olan Birinci Şahsevən kəndi ərazisində yerləşən fərdi yaşayış evinə verilmiş MH seriyalı 002914 nömrəli (reyestr nömrəsi 607011000112-05101-093001, qeydiyyat nömrəsi 1708002081) çıxarış, texniki pasport və qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

"Lahori Dhaba" MMC-yə (VÖEN 1504349281) məxsus möhür itdiyi üçün etibarsız sayılır.

Orucova Maya Zülfüqar qızının adına (VÖEN 1502346492) Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi təhlükəli yüklərin nəqliyyat vasitəsi ilə daşınması üçün 8 avqust 2014-cü il (qeydiyyat nömrəsi FHN/ 38-01617) tarixində verilmiş N 074040 saylı lisenziya itdiyi üçün etibarsız sayılır.

Yardımlı rayon aqrar islahat komissiyasının 21 dekabr 1998-ci il tarixli 19/1 nömrəli qərarı ilə Bozayran kənd sakini Bağışov Sərraf Şıxali oğluna verilmiş Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN 239 A; KOD 80407018) itdiyi üçün etibarsız sayılır.

---

## "Azərbaycan" nəşriyyatı 20 ton /84 sm, 45 qr/m²/ "Sıktıvkar" tipli rulonda qəzet kağızının satın alınması məqsədi ilə

## KOTİROVKA SORĞUSU ELAN EDİR

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı ünvana - Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatının iqtisadiyyat şöbəsinə (əlaqələndirici şəxs: A.Vəlimətov, telefon - 539-00-19) müraciət edə bilərlər.

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər imzalanıb möhürlənmiş kotirovka təkliflərini 13 sentyabr 2019-cu il saat 15.00-dan gec olmamaq şərtilə təqdim etməlidirlər.

Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır.

Kotirovka təklifləri "Azərbaycan" nəşriyyatının inzibati binasının V mərtəbəsində 16 sentyabr 2019-cu il saat 17.00-da açılacaqdır. İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılışı prosedurunda iştirak edə bilərlər.

**Tender Komissiyası.**

---

## ALLAH RƏHMƏT ELƏSİN

**Ziraddin Cəfərov, Bəhram Kərimov, Rövşən Cəfərov, Sabir Qocayev, Qismət Sadıqov, İslam Paşayev ailə üzvləri ilə birlikdə yaxın dostları Vidadi Orucova, Məhəmmədəli və Azər Mustafayevlərə, əzizləri**

**BAYRAM ƏHMƏD oğlu MUSTAFAYEVİN**

**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

**BDU-nun Sosial elmlər və psixologiya fakültəsinin Pedaqogika kafedrasının əməkdaşları kafedranın dosenti Rəhimə Mahmudovaya, əzizi**

**AZƏRİN**

**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

Baş redaktor
Teymur ƏHMƏDOV

● Redaksiyanın telefonları:

İqtisadiyyat və islahatlar redaksiyası: **539-95-51;**
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: **538-55-20;**
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: **539-26-18;**
Humanitar siyasət redaksiyası: **538-25-70;**
Xəbərlər redaksiyası: **538-61-02;**
İctimai rəy və sosial problemlər redaksiyası: **539-95-51; 538-43-41 tel/faks;**
Qəbul otağı: **538-25-70;**
Katiblik: **538-25-70;**
Reklam və elan xidməti: **441-20-23.**




● Redaksiyanın ünvanı:

AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
**E-mail: resp@azdata.net**
**www.respublica-news.az**
*"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.*
Qeydiyyat № 7.

İndeks 0240
Tiraj 4292
Sifariş 023
Qəzetin satış qiyməti 40 qəpik

Məsul növbətçi
Ataş CƏBRAYILOV

● Çapa imzalanmışdır
10.09.2019